MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

MÜNDƏRİCAT

ÖN SÖZ 6

QEYRİ-MADDİ MƏDƏNİ İRS ANLAYIŞI – MƏDƏNİYYƏTİMİZİN DÜNYADA DANIŞAN DİLİ
Şikar Qasımov 7

AZƏRBAYCANIN İRS NÜMUNƏLƏRİ YUNESKO-NUN
QEYRİ-MADDİ MƏDƏNİ İRS SİYAHISINDA
Məleykə Hüseynova 15

AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ VƏ ONUN İNKİŞAF MƏRHƏLƏLƏRİ
Şikar Qasımov 20

MUĞAMIN TARİXİ VƏ MİLLİ KİMLİKDƏ ROLU (ARXEOLOJİ MATERİALLAR ƏSASINDA)
Kübra Əliyeva 30

MUSİQİNİN FƏLSƏFİ DƏYƏRİ
Elmira Abasova 39

TAR ALƏTİNİN YARANMA TARİXİ, FORMALAŞMASI VƏ İFAÇILIQ SƏNƏTİ
Səxavət Məmmədov 50

KAMANÇA ALƏTİNİN YARANMA TARİXİ, İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ
İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ
Toğrul Əsədullayev 54

"DƏDƏ QORQUD" DASTANI İSLAMİ QAYNAQ KİMİ
Aybəniz Rəhimova 58

POSTMODERN AZƏRBAYCAN ROMANINDA "DƏDƏ QORQUD" DASTANI VƏ
TƏHRİF EDİLMİŞ TARİX
Şəmil Sadıqov 63

AŞIQ, XANƏNDƏLİK VƏ MUĞAM SƏNƏTİNİN AZƏRBAYCAN XALQ YARADICILIĞININ
TƏBLİĞİNDƏ ROLU
Şikar Qasımov 69

OZAN-AŞIQ SƏNƏTİNİN TARİXİ-MƏDƏNİ SƏCİYYƏSİ
Hafiz Kərimov 80

AZƏRBAYCANIN AŞIQ SƏNƏTİ VƏ QADIN AŞIQLARI ƏZİZƏ CƏFƏRZADƏ
YARADICILIĞINDA
Fərqanə Zülfiqarova 87

ŞİFAHİ YUMOR VƏ SÖZ MƏDƏNİYYƏTİ: LƏTİFƏLƏRİN MAARİFLƏNDİRİCİ VƏ
SATİRİK FUNKSİYASI
Lətafət Əliyeva 91

AZƏRBAYCANIN AŞIQ SƏNƏTİ VƏ QADIN AŞIQLARI ƏZİZƏ CƏFƏRZADƏ YARADICILIĞINDA

Fərqanə Zülfiqarova
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
https://doi.org/10.30546/19023.2026.1001.252

Aşıq sənəti qədim tarixi köklərə malik olub, poeziya, rəqs, dram elementləri, bədahətən şeir demə və musiqili improvizasiya kimi müxtəlif incəsənət növlərini özündə birləşdirir. Bu çoxşaxəli bədii vasitələrlə çıxış edən aşıqlar yüksək istedad və ustalıq nümayiş etdirərək dinləyiciləri cəlb edir. Aşıq ifası mahiyyət etibarilə kiçik səhnə formasını xatırladır və burada söz, musiqi, saz və ifaçı şəxsiyyəti vahid bədii bütövlük təşkil edir.

28 sentyabr - 2 oktyabr 2009-cu il tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilmiş YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 4-cü sessiyasında qəbul olunmuş qərara əsasən Azərbaycan aşıq sənəti YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

Aşıq sənətində xüsusi yer tutan janrlardan biri "gözəlləmə"dir. Bu janrda şeirlər sevgiliyə, gözəl qadınlara, qəhrəmanlara, o cümlədən Koroğlu və onun atı Qırat kimi obrazlara həsr olunur. Aşıq yaradıcılığında həm kədərli mövzulu havalar ("Yanıq Kərəm", "Dilqəmi"), həm də rəqs xarakterli ifalar ("Əfşəri", "Şərəli") mövcuddur və bunlar milli musiqi irsinin mühüm hissəsini təşkil edir.

Aşıqlar Azərbaycan xalqının bayramlarında, mərasimlərində və toylarında mühüm rol oynamışlar. Onların ifası bəzən balaban və digər nəfəs alətləri ilə müşayiət olunsa da, əsas musiqi aləti həmişə saz olmuşdur. Tarixi mənbələrdə aşıqlar "ozan", "varsaq", "dədə" kimi adlarla da tanınmışdır. Onların keçmişi və fəaliyyəti eposlarda, rəvayətlərdə və mahnılarda qorunaraq bu günümüzə qədər gəlib çatmışdır.

Aşıq sənəti muğam sənəti ilə yanaşı Azərbaycan musiqi mədəniyyətinin iki əsas sütunundan biri hesab olunur. Bu sənət zəngin mövzu müxtəlifliyi, rəngarəng süjet xətti və çoxşaxəli ifadə vasitələri ilə seçilir. Aşıq yaradıcılığı yalnız poetik düşüncə nümunəsi deyil, eyni zamanda xalqın müdrikliyinin, çoxəsrlik həyat təcrübəsinin və mədəni yaddaşının ifadəsidir. Onun dilində sadəlik, poetiklik, emosionallıq və yüksək bədii təsir gücü birləşir. Aşıqların yaratdığı poetik irs şifahi xalq yaradıcılığı ilə yazılı ədəbiyyat arasında mühüm əlaqələndirici rol oynayır.

Aşıq sənətində əsas obraz aşığın özüdür. O, həm ifaçı, həm şair, həm də rəvayətçi kimi çıxış edir. Bu sənətdə qoşma, gəraylı, müxəmməs, qıfılbənd, ustadnamə, təcnis, vücudnamə kimi milli poeziya janrları geniş yayılmışdır. Bu janrlar bəzən dastanların tərkib hissəsi kimi də çıxış edir və aşıq yaradıcılığının struktur əsasını təşkil edir.

Azərbaycan aşıq sənətinin ən qədim epik qaynaqlarından biri VII əsrə aid edilən Kitabi Dədə Qorqud dastanıdır. Bu abidə qədim ozan ənənələrinin davamı kimi aşıq sənətinin ilkin formalarını əks etdirir və qəhrəmanlıq, sevgi, ictimai münasibətlər kimi mövzuları özündə cəmləşdirir.

Aşıq sənəti sonrakı dövrlərdə peşəkar musiqi yaradıcılığına da ciddi təsir göstərmişdir. Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov ilk dəfə olaraq aşıq musiqisinin xüsusiyyətlərini "Koroğlu" operasında istifadə etmişdir. Daha sonra Qara Qarayev müasir musiqi texnologiyaları ilə aşıq üslubunu sintez edərək Üçüncü simfoniyasının ikinci hissəsində bu ənənənin yeni bədii ifadəsini yaratmışdır.

Aşıq musiqisinin zənginliyi onun çoxsaylı variantlarının mövcudluğu ilə də təsdiqlənir. "Kərəmi", "Əfşarı", "Kürdü", "Dilqəmi", "Yanıq Kərəmi" kimi havaların 80-dən artıq coğrafi variantı

məlumdur. Aşıq havalarında musiqi ilə poetik mətnin qarşılıqlı əlaqəsi onların melodik, ritmik və forma xüsusiyyətlərinin formalaşmasında mühüm rol oynayır. Aşıq sənəti Azərbaycanın Qazax, Tovuz və Şamaxı bölgələrində, eləcə də tarixi Göyçə və Borçalı mahallarında xüsusilə geniş yayılmışdır [17].

İstedadlı yazıçı və folklorşünas Əzizə Cəfərzadənin yaradıcılığında milli kimlik konsepsiyası, xüsusilə ana, qadın və qadın aşıqları mövzusu mühüm yer tutur. Bu istiqamət onun yaradıcılığının əsas xəttini təşkil edir. Əzizə Cəfərzadə çoxsaylı tarixi romanlar, povestlər, bayatılar və şeirlər müəllifi kimi geniş oxucu auditoriyasının rəğbətini qazanmışdır. Onun yaradıcılığa ilk addımı 1937-ci ildə "Əzrayıl" hekayəsinin nəşri ilə başlamışdır.

Yazıçının "Natəvan haqqında hekayələr", "Qızımın hekayələri", "Anamın nağılları", "Çiçəklərim" kimi əsərləri uşaqlar üçün yazılmışdır. "Sahibsiz ev", "Əllərini mənə ver" kimi kitablarında isə milli məişət, xalqın həyat tərzi və mənəvi dəyərlər ön plana çəkilmişdir. Əzizə Cəfərzadənin yaradıcılığı folklorşünaslıqla sıx bağlı olmuş, o, həm də xalq ədəbiyyatının tədqiqatçısı kimi tanınmışdır. "Azərbaycan aşıq və şair qadınları", "Şirvanın üç şairi", "Vətənə qayıt", "Bakı-1501", "Cəlaliyyə", "Sabir" və digər əsərləri onun milli düşüncənin inkişafına verdiyi töhfəni əks etdirir.

Onun yaradıcılığı yalnız ədəbiyyat sahəsi ilə məhdudlaşmamış, həm də milli kimliyin, qadın hüquqlarının, sosial ədalətin və humanist dəyərlərin təbliğinə xidmət etmişdir. 1990-2000-ci illərdə yazdığı "Eldən-elə", "Gülüstandan öncə", "Zərrintac-Tahirə", "Bir səsin faciəsi", "İşığa doğru", "Bəla", "Rübabə Sultanım", "Xəzərin göz yaşları", "Eşq sultanı" kimi əsərləri ilə yazıçı oxucularda milli ruhun güclənməsinə, tarixi yaddaşın canlanmasına və aşıq sənətinə marağın artmasına təsir göstərmişdir.

Ümumilikdə Əzizə Cəfərzadənin yaradıcılığında Azərbaycan qadınının azadlığı uğrunda mübarizə aparıcı mövzulardan biri kimi xüsusi yer tutur. Yazıçının əsərlərində milli kimlik, insan və qadın konsepsiyası əsas ideya xəttini təşkil edir. Bu baxımdan o, qadın hüquqlarının qorunması, qadının cəmiyyətdəki mövqeyi və mənəvi dəyərlərin təbliği kimi məsələlərə geniş yer vermişdir. Əsərlərində folklorşünaslıq elementlərinin, xüsusilə "folklorizm"in ədəbi-bədii və elmi baxımdan əhəmiyyətinə diqqət yetirilməsi onun yaradıcılığının mühüm xüsusiyyətlərindən biridir [3, s.44].

Əzizə Cəfərzadə Azərbaycan folklorşünaslığının aparıcı simalarından biri kimi, xüsusilə qadın aşıqların yaradıcılığının öyrənilməsi sahəsində geniş fəaliyyət göstərmişdir. Onun tədqiqatlarında bayatı janrına xüsusi üstünlük verilir. Bu, həm də onun bədii yaradıcılığında bayatıların lirik lövhələrin yaradılmasında mühüm rol oynaması ilə bağlıdır. Yazıçı ana nənəsindən topladığı bayatılar vasitəsilə zəngin folklor materialını ictimaiyyətə təqdim etmiş, milli irsin qorunmasına mühüm töhfə vermişdir.

Əzizə Cəfərzadənin elmi araşdırmaları, xüsusilə aşıq poeziyasının və el aşıq yaradıcılığının tədqiqi folklorşünaslıq baxımından xüsusi əhəmiyyət kəsb edir. Onun aşıq yaradıcılığına həsr olunmuş əsərləri Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərmiş qadın aşıqların həyat və yaradıcılığının öyrənilməsinə yönəlmiş, bu sənətkarların geniş ictimaiyyətə tanıdılmasına şərait yaratmışdır.

Yazıçının "Azərbaycanın aşıq və şair qadınları" adlı çoxcildlik əsəri uzunmüddətli araşdırmaların nəticəsi olaraq aşıq nəsillərinin inkişafını xronoloji ardıcıllıqla təqdim edir. Bu əsər həm folklorşünaslıq, həm də ümumilikdə Azərbaycan ədəbiyyatı üçün mühüm elmi və mədəni mənbə kimi qiymətləndirilir [2, s. 44].

Əsərdə xüsusilə Şirvan bölgəsinin qadın aşıqlarının yaradıcılığı, onların milli-mənəvi, əxlaqi, dini, fəlsəfi və psixoloji kimlik xüsusiyyətləri geniş şəkildə araşdırılmış və oxucuya təqdim olunmuşdur. Yazıçının özünün qeyd etdiyi kimi, "aşıq sənəti muğamdan daha qədimdir" fikri də bu sənətin tarixi dərinliyini və əhəmiyyətini vurğulayır [7, s. 522].

Əsərdə Şirvan aşıq və şair qadınlarının hansı sosial-mədəni mühitdə formalaşdığı, onların yaradıcılıq istiqamətləri və cəmiyyətlə qarşılıqlı münasibətləri təhlil edilmişdir. Bu baxımdan tədqiqat yalnız bioqrafik və ədəbi faktların təqdimatı ilə məhdudlaşmır, eyni zamanda milli kimlik konsepsiyasının elmi əsaslarla şərhini verir.

Əzizə Cəfərzadənin iki cildlik "Azərbaycanın aşıq və şair qadınları" əsərində qadın sənətkarların yaradıcılığında kimlik məsələsi xüsusi elmi əhəmiyyət daşıyır. Yazıçı Azərbaycan qadınının milli təfəkkürünü bayatıların lirizmi, insani dəyərlər və milli-mənəvi prinsiplər əsasında təqdim edir, bu yanaşmanı tarixi faktlarla əsaslandırır [9, s. 61].

Onun "Bakı-1501", "Cəlaliyyə", "Aləmdə səsim var mənim", "Vətənə qayıt", "Yad et məni", "Eldən-elə", "Eşq sultanı", "Zərrintac-Tahirə", "Bir səsin faciəsi", "Səməndər quşu", "Hun dağı", "Anamın nağılları" və digər əsərlərində də şifahi xalq ədəbiyyatının motivləri geniş şəkildə əks olunmuşdur. Bu əsərlər vasitəsilə müəllif milli kimlik konsepsiyasını geniş oxucu kütləsinə çatdırmışdır.

Xüsusilə "Bakı-1501" romanı yazıçının tarixi mövzuya yanaşmasını əks etdirən diqqətəlayiq nümunələrdəndir. Əsərdə Şah İsmayıl Xətainin Şirvanşahlar üzərinə yürüşləri fonunda baş verən hadisələr təsvir olunur. Eyni zamanda sadə kəndli qızı Bibixanımın qəhrəmanlıq yolu, onun cəsarəti və iradəsi ön plana çəkilir. Obrazın inkişaf xətti vasitəsilə qadının cəmiyyətdəki rolu, gücü və mənəvi keyfiyyətləri bədii şəkildə təqdim edilir [12, s. 300].

Əzizə Cəfərzadənin tarixi romanı olan "Cəlaliyyə" əsərində XIII əsrin əvvəllərində Naxçıvanın qadın hakimi olmuş Məlikə Cəlaliyyənin keşməkeşli həyat yolu və dövrün ziddiyyətləri təsvir olunur. Əsərdə Atabəylər dövlətinin ikinci hökmdarı Atabəy Məhəmməd Cahan Pəhləvanın qızı olan Məlikə Cəlaliyyənin vətəni və torpağı uğrunda canından keçməyə hazır olması, eləcə də Xarəzmşah Cəlaləddin, Qızıl Arslan, Nizami Gəncəvi kimi tarixi şəxsiyyətlərin bədii-psixoloji obrazları geniş şəkildə təqdim olunur [5, s. 184].

Yazıçının "Hun dağı" əsərində Humay ananın müdrikliyi, Aylanın sadiq sevgisi və müxtəlif xarakterlər bədii-psixoloji çalarlarla təsvir edilir. Bu vasitə ilə müəllif qəhrəmanlarını oxucuya sevdirir və Hun xaqanlığı daxilində baş verən hadisələri əsər boyu izləyiciyə çatdırır [16, s. 128].

"Zərrintac-Tahirə" romanı XIX əsrin birinci yarısında indiki İran ərazisində yaşamış, Şərqdə qadın azadlığı uğrunda mübarizə aparmış, Babilər hərəkatında fəal iştirak etmiş və üsyanlara rəhbərlik etmiş şairə Tahirə Qürrətüleynin (1817-1852) həyatından bəhs edir. Əsərdə onun azadlıq ideyaları və faciəli taleyi təsvir olunur. Mətndə verilən dialoq bu ideyanı əks etdirir:

"Baba, niyə inanırsan?"

Baba cavab verdi:

- Mən ona inanıram ki, sən ona inanmırsan... Qoy sən öz inamında, mən də öz inamımda qalım. Sən məni öldürə bilərsən, amma qadın azadlığı istəyini heç vaxt öldürə bilməzsən [13, s. 299].

Yazıçının "Natəvan" adlı hekayələr kitabında isə Qarabağ xanı Mehdiqulu xan Cavanşirin qızı, şairə, rəssam və xeyriyyəçi Xurşidbanu Natəvanın (1832-1897) həyat və fəaliyyəti təsvir olunur. Müəllif bu hekayələrdə Natəvanın yaşadığı dövrü, Şuşa və Ağdamdakı həyatını canlandırmış, eyni zamanda milli adət-ənənələri və yüksək mənəvi dəyərləri özünəməxsus üslubda təqdim etmişdir [14, s. 168].

"Eşq sultanı" yazıçının son əsəri olub, Məhəmməd Füzulinin həyat və yaradıcılığına həsr edilmişdir. Əsərdə eşqin bəşəri duyğudan ilahi məqama yüksəlişi bədii şəkildə təsvir olunur və böyük sənətkarın mənəvi dünyasının sirləri açılmağa çalışılır. Romanda Füzulinin tanınmış ziyalılarla görüşləri ilahi eşq kontekstində təqdim edilir [15, s. 216].

Əzizə Cəfərzadə və qadın, ana yaradıcılığı Azərbaycan folklorunda mövzusu çərçivəsində qadın və ana münasibətləri, eləcə də folklorşünaslıq fəaliyyəti yazıçının həm nəzəri, həm də praktik

yaradıcılığında dərin iz buraxmışdır. Ümumilikdə Əzizə Cəfərzadənin bədii təfəkküründə, fərdi üslubunda və əsərlərindəki estetik ideyanın təzahüründə folklorizm xüsusi və mürəkkəb bir hadisə kimi çıxış edir [8, s. 320].

Milli kimlik konsepsiyası Əzizə Cəfərzadənin yalnız folklorizmində və bədii irsində deyil, eyni zamanda əsərlərinin quruluşunda, süjet xəttində, obrazların canlılığı və təbiiliyində də özünü göstərir. Bu konsepsiya yazıçının yaradıcılığının əsas ideya istiqamətlərindən birini təşkil edir.

Nəticə olaraq qeyd etmək olar ki, Əzizə Cəfərzadənin bədii və elmi yaradıcılığında mühüm yer tutan qadın və aşıq mövzuları, eləcə də folklorizmin tədqiqində irəli sürülən milli kimlik konsepsiyası onun uzunmüddətli yaradıcılıq axtarışlarının nəticəsidir. Yazıçı həm yazılı, həm də şifahi ədəbiyyatımızı orijinal nümunələrlə zənginləşdirmiş, ona yeni məzmun və canlılıq bəxş etmişdir.

İctimai xadim və vətənpərvər yazıçı kimi Əzizə Cəfərzadə 1981-1989-cu illərdə Respublika Qadınlar Şurasının sədri vəzifəsində çalışaraq Azərbaycan qadınlarının və uşaqlarının hüquqlarını müdafiə etmişdir. O, həmçinin xeyriyyəçilik fəaliyyəti ilə məşğul olmuş, 1979-cu ildə öz vəsaiti hesabına orta məktəb və klub binası tikdirmişdir. Yazıçı Azərbaycanın müstəqilliyi uğrunda və erməni təcavüzünə qarşı mübarizədə fəal mövqe tutmuşdur. Onun həyat və yaradıcılığı haqqında Azərtelefilm tərəfindən iki televiziya filmi çəkilmişdir [1, s. 174].

Ədəbiyyat:

1. Cəfərzadə Ə. Azərbaycanın şair, aşıq qadınları. – Bakı: Gənclik, 1974. – 197 s.
2. Cəfərzadə Ə. Klassik ədəbiyyatda Azərbaycan qadınının azadlığı uğrunda mübarizə. – Bakı: Azərnəşr, 1961. – 199 s.
3. Cəfərzadə Ə. Folklor və qadın, ana yaradıcılığı Azərbaycan folklorunda. – Bakı: Azərnəşr, 1997. – 174 s.
4. Hasilova G.A. Azize Ceferzadenin araştırmalarında masal türü // Motiv Akademi. – 2011. – S. 251–255.
5. Hasilova G.A. Tarixi roman və folklor // Folklor və tariximiz mövzusunda Respublika elmi konfransının materialları. – Bakı, 2012. – S. 86–93.
6. Hasilova G.A. Фольклоризмы в произведениях Азизы Джафарзаде // Литература и художественная культура тюркских народов в контексте Восток–Запад: материалы международной научно-практической конференции. – Казань, 2014. – С. 522–526.
7. Hasilova G.A. Kadın yazar Aziza Ceferzadenin araştırmalarında ana karakteri // XXVI Uluslararası Kibatek Edebiyat Sempozyumu (İstanbul, 28–29 Nisan 2014). – İstanbul, 2014. – S. 313–320.
8. Hasilova G.A. Əzizə Cəfərzadə və Azərbaycan qadın aşıqları // Dədə Qorqud. – 2014. – № 1 (50). – S. 61–68.
9. Hasilova G.A. Əzizə Cəfərzadənin bədii nəsrində bayatı mətnləri // Şifahi xalq ədəbiyyatına dair tədqiqlər. – 2014. – № 4. – S. 106–116.
10. Хасилова Г.А. Язык художественных произведений Азизы Джафарзаде // Вестник Казахского национального университета им. Аль-Фараби. – 2015. – № 5. – С. 158–163.
11. İbrahimov T. Əzizə Cəfərzadə: Bakı-1501 (tarixi roman). – Bakı: Mimta Yayımları, 2023. – 300 s.
12. İbrahimov T. Əzizə Cəfərzadə: Zərintac-Tahirə (tarixi roman). – Bakı: Sky G, 2023. – 308 s.
13. İbrahimov T. Əzizə Cəfərzadə: Natəvan (hekayələr). – Bakı: Mimta Yayımları, 2022. – 168 s.
14. İbrahimov T. Əzizə Cəfərzadə: Eşq sultanı (roman). – Bakı: Mimta Yayımları, 2023. – 216 s.
15. İbrahimov T. Əzizə Cəfərzadə: Hun dağı (tarixi roman). – Bakı: Mimta Yayımları, 2024. – 128 s.
16. İbrahimov T. Əzizə Cəfərzadə: Cəlaliyyə (tarixi roman). – Bakı: Sky G, 2024. – 184 s.
17. Azərbaycan aşıq sənəti [Elektron resurs]. – URL: https://YUNESKO.az/az/articles/intangible_cultural_heritage/art-azerbaijani-ashiqs – Götürülmə tarixi: 04.04.2026.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300